# Adil Əliyev fiziki məhdudiyyətli futbolçularla görüşüb



İyunun 5-də Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan-Türkiyə Amputant Futbol Klubları arasında keçirilən yoldaşlıq oyununun iştirakçıları ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iştirakçıları salamlayan Adil Əliyev bu oyunda dostluq, yoldaşlıq və qardaşlığın qazandığını vurğulayıb. Vitse-spiker Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz zəfər və zəfərdən sonra Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işləri barədə türkiyəli qonaqlara məlumat verib. O, belə oyunların təşkilinin qazilərin və əlilliyi olan insanların cəmiyyətə inteqrasiyası üçün önəmli olduğunu və onların mənəvi durumlarına müsbət təsir göstərdiyini qeyd edib.

Adil Əliyev Türkiyə dövlətinin və Prezident Rəcəb Tayyib Ərdoğanın müharibə zamanı ölkəmizə verdiyi siyasi və mənəvi dəstəyini minnətdarlıqla qeyd edib. O, Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə Türkiyə prezidenti seçilməsini bütövlükdə türk dünyası üçün önəmli hadisə kimi qiymətləndirib.

Sonda Milli Məclis Sədrinin müavini Adil Əliyev qonaqları parlamentin inzibati binasının foyesində Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış "Zəfər guşəsi" ilə tanış edib.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 iyun.- S.3.